В результате воздействия электромагнитных волн длиной около 380-780 нанометров эти рецепторы обладают способностью генерировать физиологические (нервные) сигналы. Фоторецепторы бывают двух типов: стержневидные и трубчатые. Рецепторы в форме палочки воспринимают только контрасты черного и белого, они чувствительны к сильному свету, что позволяет видеть даже в сумерках и темноте. Трубчатые рецепторы отвечают за восприятие цвета.

## INFLUENCE OF COLORS ON HUMAN PSYCHOLOGY

***Safarova Anna Elxan kyzy***

***Summary***

Today, flower symbols are widely used in the advertising business. Psychologists have found that blue, gold, white, black and red can be used to create any production worthy of the elite, because these colors have long been considered "expensive" colors, symbolizing the elite. Indeed, the synthesis of blue or black with gold is widely used in expensive production. A black logo (for example, a logo written in gold) or allows you to more effectively push the image in close-up.

Numerous psychological and sociological studies of psychology have shown the perception of color as a monotonous picture. On the one hand, the emotional impact of colors is due to the characteristics of universal, secular objects (blue sky, red blood, yellow sun, green grass, etc.), on the other hand, it is associated with the cultures of different peoples, and it does not matter whether we understand this or no. People who in everyday life come into contact with color and come across its symbolic meaning are not only artists, designers, painters and other representatives of the art of painting.

Color is the sensory effect of light stimuli with a wavelength falling on the pupil (the so-called light spectrum, electromagnetic radiation in the range of approximately 180-780 nanometers). The physiological aspects of color perception are that, as a result of an evolutionary process, a photoreceptor has formed in the back of the human eyeball.

As a result of exposure to electromagnetic waves of about 380-780 nanometers in length, these receptors have the ability to generate physiological (nerve) signals. Photoreceptors are of two types: rod-shaped and tubular. The rod-shaped receptors perceive only contrasts of black and white, they are sensitive to strong light, which allows you to see even at dusk and darkness. Tubular receptors are responsible for color perception.

***Rəyçi: dosent Məmmədov Şaiq***
***Təsviri incəsənət kafedrasının 26 noyabr 2021-ci il tarixli iclasın 03 saylı protokolu***
***Daxil olduğu tarix  20 dekabr 2021-ci il***

**UOT:37.01.**

## CİZGİ RƏSMLƏRİNDƏ İSTİFADƏ EDİLƏN MATERİALLAR

***Verdiyeva Esmira Hüseyn qızı***

***Gəncə Dövlət Universiteti***
***verdiyefvaesmira@ mail.ru***

**Xülasə:** *Rəsm cox zaman kağız üzərində karandaşla çəkilir. Rəsm üçün ən geniş yayılmış material- qrafit karandaşdır. Rəsm üçün elastikliyi və faktura xüsusiyyətinə malikliyi ilə fərqlənən yanmış ağac kömüründən də istifadə etmək olar. O, əşyanın formasının xırda sahələrini də ümumiləşmiş halda göstərir.*

*Xətlə yanaşı tonal-tonal rəsmin həcmi məkan xüsusiyyətinin göstərilməsində müxtəlif xarakrerli ştrixovkanın da rolu az deyil.*

*İşıq kölgə, ton, xətt, ştrix və onların təsvirdə mənası rəssam-müəllimlər tərəfindən tələbələrə müxtəlif cür izah olunur.*

*Təsviri savad əldə edilməsində rəsm məşğələləri və qısa müddətli rəsmlər mühüm rol oynayır. Qısa müddətli rəsmlər üzərində sistemli iş müşahidə və nisbətləri hiss etmə qabiliyyətini inkişaf etdirir. Qısa müddətli rəsmlər üzərində işləyərkən tələbələr təsviri savad əldə edirlər.*

**Açar sözlər:** rəsm, qrafit karandaş, təsviri savad, cizgi rəsmi, çertyoj xətti

**Key words:** drawing, graphite pencil, descriptive literacy, caricature, drawing line.

**Ключевые слова:** рисунок, графитный карандаш, описательная грамотность, карикатура, линия черчения.

Kağız üzərində rəsm cox zaman karandaşla çəkilir. Rəsm üçün nəzərdə tutulan yüksək keyfiyyətli kağız növləri ilə yanaşı adi kağız da yarayar. Müxtəlif tonlaşdırılmış kağız və divar kağızının tərs tərəfindən də istifadə olunur. Kağız seçimi adətən işlənən materialın xüsusiyyətindən asılıdır.

Rəsm üçün ən geniş yayılmış material- qrafit karandaşdır. Rəsm və cizgi rəsmlərində ”M” və daha yumşaq qələmlərin istifadəsi məsləhət görülür. Sərt qrafit karandaş çox zaman xırda detallı rəsm çəkmək üçün istifadə olunur.

Cizgi rəsmi qısa müddətli olduğu üçün ona nadir hallarda pozanla düzəliş verilir.

Bu növ rəsmlər üçün tonal çalarları ifadə edən, parıltı verməyən və kağızın demək olar ki, bütün növləri ilə işlənən “Retuş №1 və №2” karandaşlarının istifadəsi məsləhətdir.

Bu kömür müxtəlif ağac növündən hazırlanmış nazik çubuqlar şəklində olur. Rəsmdə kömürün silinməsi və tünd yerlərin açılması üçün ağ çörəyin içi və yaxud ləkəaparan pozandan istifadə olunur. Adi pozan ştrixlənmiş səthi ləkələyir.

Fakturanın xüsusiyyətini, yumşaq, enli xətləri nəzərə alsaq kömürlə çəkilmiş cizgi rəsmlərinin ölçüsü karandaşla çəkilmiş cizgi rəsmlərinin ölçüsündən daha böyük olur.

Kömürlə işləmək üçün kələ-kötür üzlü kağız növlərindən istifadə etmək lazımdır. Bunun üçün boz sarğı kağızı və divar kağızı da yarayar. Açıq rəngli yrləri göstərmək üçün bəzən təbaşirdən də istifadə olunur. Bunu xüsusi ehtiyatla və yalnız daha çox işıqlı yerləri qeyd etmək üçün lazımdır. Təbaşirdən sui-istifadə etmək məsləhət görülmür, çünki təcrübəsiz rəssamda bu çox vaxt rəsmin səviyyəsinə zərər gətirən xarici effekti göstərməsinə səbəb olur.

Kömürdən istifadəni böyük rəsm ustası V.A.Serovun A.K.Qlazunovanın portretindən də görmək olar. Portretdə insan xarakterinin göstərilməsi üçün istifadə olunan vastələrin müxtəlifliyi görünür.

Kömür rəsmlərinin bərkidilməsinin ən əlverişli üsulu su fiksativləridir.

### *Cizgi rəsmləri və tonal rəsmlərdə xətt və ştrixlər*

Xətt və ştrix əşyaların həcm formasının, onların materiallığının və məkan yerləşməsinin göstərilməsində vacib rol oynayırlar. Əşyaların materialından, konstruktiv quruluşundan, yerləşməsindən, işıq kölgəsində və tonal nisbətindən asılı olaraq rəsmdə xətt və ştrixlərin xüsusiyyəti dəyişir. Realist-rəssamların eskiz və tonal rəsmlərinin analizi xətt və ştrixlənməyə xas olan bir neçə qanunauyğunluğu qeyd etməyə imkan yaradır.

1. Xətt əşyanın dərinliyə gedən formasını təsvir edərək öz qalınlığını və aktivliyini (tündlüyünü) itirir. Daha çox qeyd olunan formanın başlanğıcı, daha az-formanın sonudur.

2. Şaquli və mail kənarları təsvir edən xətlər (məsələn, kubun, piramidanın və.s. tilləri) öz aktivliyini formanın təsvirdə uzaqlaşmasından asılı olaraq itirir.

3. İşıqlandırılmış səthlərin yüngül (açıq), kölgəli tərəflərin sərhədləri isə tünd xətlə qeyd olunur.

4. Xətlərin fəallıq səviyyəsi tonal nisbətə uyğundur: tünd əşya daha aydın siluetlərə malikdir və daha aktiv konturla qeyd olunur.

5. Xətlərin xüsusiyyəti əşyaların səth xüsusiyyətinə müvafiq olaraq dəyişir: metal-sərt xətt; yun parça-yumşaq, daha geniş xətt; sümük çıxışları- aydın iti ştrix; əzələ toxumaları-yumşaq ştrixlənmə və s.

6. Şaquli və horizontal xətlər təsvirin üçölçülüyünə "müqavimət göstərərək" onun müstəviliyini qeyd edirlər.

*Tonal və xətt rəsmləri*

İşıq kölgə, ton, xətt, ştrix və onların təsvirdə mənası rəssam-müəllimlər tərəfindən müxtəlif cür izah olunur. Bu məsələ böyük əhəmiyyət kəsb edir, çünki bu vasitələrdən istifadə bacarığı "həcm görünüşü"nü tərbiyə edir.

Ton forma səthinin hər hissəsinin işıqlandırma dərəcəsi, onun işıq gücü kimi izah edilir. Hər forma nəzərimiz tərəfindən ton cəhətdən müxtəlif səthlərin ahəngi kimi qəbul olunur. Beləliklə, yerləşdiyi mühit kimi formanı da üzə çıxaran ton onun xarakterini də müəyyənləşdirir.

Biz gördüklərimizi müxtəlif işıqlandırma dərəcəsində görürük və bu da bizə təbiət formalarının çeşidlərini, onların xarakterini, quruluşunu müşahidə etməyə və öyrənməyə imkan yaradır. Bunun sayəsində də formanı qrafik vasitə kimi geniş istifadə edərək rəsm çəkmək, daha dəqiq desək formanı tonla yapmaq imkanı yaranır. Məsələn, mənzərə təsvirində bütün onun komponentləri tonla verilə bilər: torpaq, su, ot, ağaclar, evlər, insanlar, heyvanlar, həmçinin səma və hava, yəni təsvir olunan əşyaların və canlı varlıqların yerləşdiyi mühit. Tonla həmçinin əşyaların materiallığı və fakturası da göstərilə bilər: ağacın, gipsin, şüşənin, parçanın, metalın və s.

Pedaqoji praktika göstərir ki, ton anlayışı forma göstərilməsinin vasitəsi kimi ibtidai sinif şagirdlərində kifayət qədər deyil.

Hər şeydən əvvəl şagirdlərə izah etmək lazımdır ki, tonal rəsm, yəni natura formasında görünən bütün səthlərin tonla göstərilməsi yalnız quruluş və xarakterin diqqətlə öyrənilməsindən sonra mümkündür.

Naturanın formasını müəyyənləşdirən ton onun konstruksiyasından asılı olaraq formada yerləşir; demək, tonla formanın konstruksiyasında üzə çıxır. Məhz buna görə də ton anlayışı forma anlayışından ayrı ola bilməz. "Tonlaşdırmaq" sözü əslində elə "forma düzəltmək" deməkdir.

Əgər şagird həcm təsvirində tonun mənasını başa düşdüsə o, xətt və strix kimi təsviri vasitələrin də mənasını asanlıqla qavrayacaq. Rəsm çəkməyə başlayanların istifadə etdiyi xətt ştrixdən fərqlənməlidir. Bu düz, eyni genişlikdə olan və rəsmxət praktikasında işlənən xətt tonal rəsmdə işlənmir.

Tonal rəsm – ton vasitəsilə kağızın xəyali drinliyində forma quran səthlərin rəsmidir. Belə quruluşda xətlərin rolu əsasən səthlərin sərhədlərini və onların perspektivaya dərinliyə gedən kəsişmələrini müəyyən etməkdən ibarətdir.

Çertyoj xətti bu məsələni həll etməyə kömək etmir.O, özü düz olaraq bütövlüklə kağız üzərində yerləşərək, həcmin tonal təsvirinin dərinliyini alır.

Ona görə də, tonal rəsmdə başqa daha ifadəli xəttdən, yəni ştrixdən istifadə olunur.

Çertyoj xəttindən fərqli olaraq ştrix xətti müxtəlif ola bilər: geniş və ya nazik, tünd və ya açıq, sərt və ya yumşaq. O, tapşırığın xarakterindən asılı olaraq gah yoxa çıxıb, gah da yenidən peyda ola bilər.

Aydındır ki, formanın vəziyyəti dəyişdikdə kontur, yəni görünən xətt də dəyişir və ton baxımdan formanı əhatə edən mühitin tonuna yaxın olanda tamamilə yoxa çıxa bilər. Və bu da aydındır ki, görünən kontur formanın perspektiv qısaldılmış səthdir. Ona görə də rəsmdə formanı tonla qurduqda formanın qısaldılmış səthinin işıqlandırma dərəcəsindən asılı olaraq ton, həmçinin genişlik və yumşaqlıq cəhətdən müxtəlif olan ştrix vasitəsilə göstərilir.

Ştrixdən ən çox ilk mərhələsində istifadə olunur.Yüngül ştrixlərlə rəsmin tərtibi, gələcək təsvirin yeri və s. qeyd olunur. Ştrixlə formanın ilk ümumiləşmiş təsvirindən və kağız

üzərində perspektiv quruluşundan başlayaraq forma qurulur. Ştrixlə formanın detalları da qeyd olunur.

Bəzən ştrixlə tamamlanmış rəsmi yekunlaşdırarkən formanın ayrı-ayrı hissələri və ya detalları qeyd olunur.

Ştrixdən bacarıqla istifadə etdikdə həcmli rəsm tonsuz da istifadə oluna bilər. Lakin həcmli rəsmin yalnız ştrixlə yerinə yetirilməsi çox böyük təcrübə, dərin bilik və forma anlayışı tələb edir. Belə rəsmlərin xüsusi nümünələrini Qolbeyn, Enqra, V.A.Serov və başqa rəsm sənətkarlarında görmək olar.

***Bədii yaradıcılıqda müddətli rəsmlərin rolu***

Qisa müddətli rəsmlər – rəsmin növlərindən biridir. Onlara tez, lakonik zarisovka da deyilir. Adətən, onlar kiçik ölçülü olurlar. Bu onunla əlaqədardır ki, qısa müddətli rəsmlər, müxtəlif şəraitdə və tez çəkilir. Bəzən qısa müddətli rəsmlər küçələrdə, heyvanxanalarda, meydanlarda, şəhər kənarında və s. çəkilir. Bu zaman rəssam öz gördüklərini və xəyalında yaratdıqlarını tez bir zamanda kağıza həkk etmiş olur. Qisa müddətli rəsmlər böyük illüstrativ material toplamağa imkan verir.

Bir qayda olaraq qisa müddətli rəsmlərdə naturadan ümumi təəssürat verilir, ən əsas cəhətlər əks etdirilir.

Qısa müddətli rəsmlərdən rəssamlıq praktikasında, müxtəlif peşə sahiblərinin (layihəçi, alim, mühəndis, pedaqoq və s.) gündəlik iş prosesində çox istifadə olunur.

Qısa müddətli rəsmlərin əhəmiyyətinə böyük qiymət verən rəssamlardan biri İntihab dövrünün rəssamı, alman Albrext Dyurerdir. Onun çoxsaylı rəsm və qısa müddətli rəsmləri təbiətin öyrənilməsində, qrafiq sənətkarlıqda qısa müddətli rəsmlərin böyük əhəmiyyətini təsdiq edir.

Leonardo da Vinçinin çoxcəhətli fəaliyyətində qısa müddətli rəsmlərdən geniş istifadə edilmişdir.

Rafaelin qısa müddətli rəsmləri insan bədəninin təsviri qanunlarına düzgün əməl edilməklə çəkilən əsl sənət nümunələri olub, insanı heyran edir.

Mikelancelonun rəsm və qısa müddətli rəsmlərində insan xarakterinin dərinliyi, hərəkətin ifadəliliyi, anatomik və texniki kamillik öz əksini tapmışdır.

Rus qrafikasında qısa müddətli rəsm tarixinin inkişafı P.A.Fedotovun adı ilə bağlıdır. Öz əsərləri üçün material toplayan rəssam həyatı dərindən öyrənmiş, müşahidələrini qısa müddətli rəsmlərlə qələmə almışdır. O, deyirdi: “Emalatxanada mən işimim onda birini görürəm. Əsas işim isə küçədə və özgə evlərdədir. Mən həyatdan öyrənir, iki gözlə çalışıram.”

İ.Q.Repin müasirlərinin qrafik portretlərindən ibarət unikal qalereya yaratmışdır. Bu işlərin əsasını naturadan qısa müddətli rəsmlər təşkil edir. İ.E.Qrabar yazır: “Repinin yanında həmişə albom olurdu. Akademiyaya gedərkən, yaxud vaqonda gedərkən və s. albomu qısa müddətli rəsmlərlə dolardı.”

V.A.Serov da qısa müddətli rəsmlərə dərindən yiyələnmişdir.

Təsviri savad əldə edilməsində rəsm məşğələləri və qısa müddətli rəsmlər mühüm rol oynayır. Qısa müddətli rəsmlər üzərində sistemli iş müşahidə və nisbətləri hiss etmə qabiliyyətini inkişaf etdirir. Qısa müddətli rəsmlər üzərində işləyərkən tələbələr təsviri savad əldə edirlər.

P.P.Çistyakov məsləhət görürdü ki, nisbətləri pis görən tələbələr müxtəlif ölçülü əşyaların qısa müddətli rəsmlərini işləməlidirlər.

Yay təcrübəsi zamanı tələbələr müxtəlif obyektlərə aid çoxlu qısa müddətli rəsmlər toplayırlar: mövzulu, kompazisiyalı qısa müddətli rəsmlər, quş, heyvan, mənzərə, kənd təsərrüfatı tikintiləri, texnikası və s.

Yay təcrübəsi dövrü açıq havada işləmək üçün də əlverişlidir. Bu zaman tələbələr qarşısında qısa müddətli rəsmlərlə əlaqədar bir sıra məsələlər meydana çıxır. Bir tərəfdən bilik

və vərdişlərin dərinləşməsi və möhkəmlənməsi prosesi gedir, digər tərəfdən mövzunun fəal öyrənilməsi prosesi həyata keçirilir. Bu mövzu adətən tələbəyə az tanış olan və yaxud tamamilə yeni mövzu olur.

Yay təcrübəsi zamanı tələbələr mənzərə çəkmək üçün zəruri olan ayrı-ayrı hissələrlə, bilikərlə və s. Tanış olurlar. Canlı heyvanlara, quşlara, insanlrın iş prosesinə, məişət səhnəsinə və s. aid çoxlu qısa müddətli rəsmlər edirlər. Qeyd etmək lazımdır ki, tələbələrin müstəqil işləri də planlı, məqsədyönlü, metodiki cəhətdən əsaslanmış, taktiki olmalı və müəllimin nəzarəti altında keçməlidir. Tələbələr verilən tapşırığı tamamilə yerinə yetirməlidirlər.

Tələbələrin yaradıcılıq axtarışları, fəallıq və müstəqillikləri müəllim tərəfindən istiqamətləndirilir və inkişaf etdirilir. Təsvir edilən naturanın mürəkkəbliyindən asılı olaraq qısa müddətli rəsmlər yarım dəqiqə, bir dəqiqədən 15-20 dəqiqəyədək müddətdə çəkilə bilər.

Dərs otaqlarında qısa müddətli rəsmlər zamanı albom, müxtəlif ölçülü kağız vərəqlərindən istifadə edilir. Küçələrdə, ictimai yerlərdə, gəzintilərdə qısa müddətli rəsmlər etmək üçün kiçik ölçülü kağızlar əlverişlidir.

Zarisovkalar üçün istənilən növdə kağızdan istifadə etmək olar. Qısa müddətli rəsmlərin ifadəli alınmasında seçilən kağızın ölçüsü, rəngi, tonu müəyyən rol oynayır.

Sulu boya, tuş-pero ilə çəkilən qısa müddətli rəsm müxtəlif kağızlarda daha yaxşı alınır. Məsələn, pero ilə qısa müddətli rəsm üçün sığallı, parıltılı kağız lazımdır. Çünki bu kağızda mürəkkəb yayılmır və pero ştrixləri yaxşı çəkir.

Sulu boya ilə eyni rəngli qısa müddətli rəsmlər çəkmək üçün suyu az çəkən kağız münasibdir. Bu kağızda sulu boyanın yayılması daha effektli görünür. Qısa müddətli rəsm üçün müxtəlif karandaş, kömür, sangina, sous, mürəkkəb, tuş, sulu boya, ağ təbaşir, flomaster və s. istifadə etmək olar.

Karandaşlardan 3M – 6M, 3B – 8B daha münasibdir. Kömür karandaşı № 6, № 1 - 2-də əlverişlidir. 2 – 3 yumşaq rəngli karandaşlardan da istifadə etmək olar. Lakin bu halda bir qədər diqqətli olmaq lazımdır. Məsələn, portret və çılpaq adam fiquru çəkərkən göy və yaşıl rəngli karandaşlardan istifadə etmək olmaz.

Təlimin ən əsas didakdik prinsiplərindən biri sadədən – mürəkkəbə doğru prinsipidir. Qısa müddətli rəsm işləyərkən də bu prinsipə əməl edilməlidir. Proqram materiallarının məzmunu, pedaqoqun metodiki fəaliyyəti mütləq bu prinsipə uyğunlaşmalıdır.

Adətən tələbələr praktiki işlərində vaxtından əvvəl çətin, maraqlı tapşırıqlara meyl edirlər. Lakin onları müvəffəqiyyətlə həll etmək üçün müəyyən bilik və vərdişlər lazımdır ki, bu da ardıcıl təlim zamanı əldə edilir.

### *Ədəbiyyat*

1.Г.В.Веда «Основы изобразительной грамоты»
2.А.Барш «Рисунок в средней художественной школе»
3.Möhbəddin Səməd Toğrul Nərimanbəyov “Qrafika rəngkarlığı” Bakı “İşıq”, 1984
4.Şaiq Məmmədov “Rəsm”

## МАТЕРИАЛЫ, ИСПОЛЬЗУЕМЫЕ В ИЗОБРАЗИТЕЛЬНОМ ИСКУССТВЕ

***Вердиева Эсмира Гусейн гызы***

### *Резюме*

Картины часто рисуют на бумаге карандашом. Самый распространенный материал для рисования - графитный карандаш. Для росписи можно использовать жженый уголь, который отличается эластичностью и фактурой. Он также показывает небольшие участки объекта в обобщенном виде.

Помимо линии, объем тонально-тонального изображения штриховка также играет важную роль в отображении пространственных особенностей.

Свет, тень, тон, линия, штрих и их значение в описании по-разному объясняются учащимся художниками-преподавателями.

Уроки рисования и краткосрочные рисунки играют важную роль в приобретении описательной грамотности. Систематическая работа над краткосрочными рисунками развивает умение наблюдать и чувствовать пропорции. Учащиеся, работая над краткосрочными рисунками, приобретают описательную грамотность.

## MATERIALS USED IN THE FINE ARTS

***Verdiyeva Esmira Huseyn gizi***

***Summary***

Pictures are often drawn on paper with a pencil. The most common drawing material is a lead pencil. For painting, you can use burnt charcoal, which is distinguished by its elasticity and texture. It also shows small areas of the object in a generalized way.

In addition to line, tonal volume, shading also plays an important role in depicting spatial features.

Light, shadow, tone, line, stroke and their meaning in the description are explained in different ways to the student by the artist-teachers.

Drawing lessons and short-term drawings play an important role in acquiring descriptive literacy. Systematic work on short-term drawings develops the ability to observe and feel proportions. Students acquire descriptive literacy by working on short-term drawings.

***Rəyçi: Akif Hüseynov***
***Təsviri incəsənət kafedrasının 26 noyabr 2021-ci il tarixli iclasın 03 saylı protokolu***
***Daxil olduğu tarix 20 dekabr 2021-ci il***